

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 iyul 2023-cü il №49 (2761) https://mod.gov.az Qiymәti 30 qəpik

## Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri, qürur mənbəyidir

*Dövlətin qüdrətini şərtləndirən amillər sırasında iqtisadi yüksəliş və güclü ordu daha böyük rol oynayır. Ölkəmiz iqtisadi və siyasi nailiyyətlərlə yanaşı, ordu quruculuğunda da böyük uğurlar qazanıb. Azərbaycan Ordusunun Cənubi Qafqazın ən güclü ordusu olduğunu dünya dövlətləri də etiraf edir.*




Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın dövlətçilik tarixində özünəməxsus rolu və miras qoyduğu yeni milli dəyərləri ilə tarixləşdi. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Əlahiddə Azərbaycan Korpusu yaradılmışdı. Müsəlman Korpusunun adının dəyişdirilməsi və Əlahiddə Azərbaycan Korpusu adlandırılması milli silahlı qüvvələrin yaradılması istiqamətində mühüm addım olmuşdu.

1918-ci il mayın 28-də qəbul olunmuş "İstiqlal bəyannaməsi"ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. 1919-cu ilin sonlarında şəxsi heyəti 25 min olan Azərbaycan Ordusunun 1920-ci ildə 40 min nəfərə çatdırılması planlaşdırılırdı... Sovet imperiyası Azərbaycan Demokratik Respublikasını ilhaq etdikdən sonra hərbi nazirlik ləğv edildi, ordu quruculuğunu başa çatdırmaq mümkün olmadı.

Yalnız Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana hakimiyyətə gəlişindən sonra onun müstəsna xidmətləri sayəsində hərbi kadrların hazırlanması prosesi yenidən başlandı. Bu, milli ordu quruculuğunda dönüş idi və dinamik bir proses oldu.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildi - 1991-ci il oktyabrın 9-da Milli Ordunun yaradılması haqqında Azərbaycan Respublikasının Ali Soveti qanun qəbul etdi. Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edildi. Bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş Azərbaycan Ordusunun ənənələri yeni müstəvidə qorunub saxlanılır, inkişaf etdirilir. Bu gərəkli iş Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ciddi səyləri nəticəsində mümkün oldu. Əbədiyaşar Komandan Heydər Əliyevin rəhbərliyi altında mütəşəkkil, qüdrətli ordu yaradılmağa başladı, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin hazırlandı.

Müstəqilliyini yeni bərpa etmiş respublikamızda nizami ordu yaradılmasına başlanıldığı andan müxtəlif təzyiqlər də meydana çıxdı. Xaricdən və daxildən göstərilən təzyiqlərin əsas məqsədi ordu quruculuğunun qarşısını almaqla Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğuna yol verməmək idi. Belə ki, sovet hakimiyyəti dövründə də imperiyanın azərbaycanlılara qarşı hərbi siyasəti dəyişməmişdi. Sovet dövründə çar dövründən fərqli olaraq azərbaycanlı gənclər hərbi xidmətə çağırılırdılar. Lakin onlar, əsasən, tikinti yönümlü hərbi hissələrdə xidmət edirdilər. Bu siyasət azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin hazırlanmasına imkan vermirdi. Bu siyasətin mahiyyətini yaxşı başa düşən Ulu Öndər Azərbaycanda hakimiyyətə gəldikdən sonra, 1971-ci il iyulun 20-də “İxtisaslaşdırılmış internat məktəbinin yaradılması haqqında” qərarın qəbul olunmasına nail oldu. Azərbaycan xalqının Ümummilli Lideri azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına da nail olmuşdu. Bu gün C.Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrlarının hazırlanmasında, deməli, Silahlı Qüvvələrimizin zabit kadrlar ilə komplektləşdirilməsində müstəsna rolu var.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkəmiz hərbi sahədə də ciddi böhranla üzləşdi. Nizami orduya malik olmayan Azərbaycan Qarabağ uğrunda gedən döyüşlərdə vəziyyəti nəzarət altına necə ala bilərdi - bu da çox çətinliklə həyata keçirilirdi. Ordunun maddi-texniki təminatı sahəsində də problemlər vardı. Müharibədəki mövqe məğlubiyyətlərinin qarşısını tədricən almaq üçün ölkənin bütün imkanları milli ordu quruculuğuna səfərbər edildi. Könüllü taborlardan nizami orduya doğru ilk ciddi addımlar atıldı. Orduda vahid komandanlıq yaradıldı. Qismən hərbi səfərbərlik və orduya çağırış işi nizamlandı.

Ölkəmizdə nizami ordu quruculuğunun əsası 1993-cü ilin sonlarında Ulu Öndərin Bakıda xalqa müraciəti ilə qoyuldu. Bu müraciətdə ordu quruculuğunun bəzi aspektləri bildirilirdi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra həm Prezident, həm də Ali Baş Komandan olaraq, ordunun qüdrətli olmasına xüsusi diqqət yetirdi. Həmin vaxtdan ordu quruculuğuna elmi prinsiplərlə yanaşıldı, ordu quruculuğu elmi əsaslarla davam etdirildi, ordu siyasi təsirlərdən xilas edildi.

Ulu Öndər Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin nəticəsi olaraq 1994-cü il mayın 12-də Bişkekdə atəşkəsə nail olundu. Atəşkəs elan olunduqdan sonra orduda aparılan islahatlar, hərbi təhsil sisteminin yaradılması və inkişafı qısa zamanda böyük nəticələr verdi.

Ulu Öndər Heydər Əliyev ordu-xalq münasibətlərini yeni bir səviyyəyə qaldırdı, bu əlaqələri daha da səmərələşdirdi, səmimiləşdirdi. Bütün fəaliyyətində xalqa güvənən, xalqın etimadına arxalanan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xalqı ordunun güc mənbəyi, ordunu xalqın bir hissəsi bilirdi. Dahi Rəhbər əmin idi ki, xalqın orduya belə münasibəti, xalqın ordunu qayğı ilə əhatələməsi ordunun inkişafının və möhkəmlənməsinin əsas şərtlərindən biridir.

Ulu Öndər Heydər Əliyev ordu quruculuğuna dövlət rəhbərliyini təmin edərək bu prosesi dövlətin müstəsna səlahiyyətləri səviyyəsinə qaldırdı. Ordunu siyasətdən kənarlaşdıraraq ölkə Konstitusiyasından irəli gələn vəzifələrə xidmət göstərməsini təmin etdi, ordunun formalaşması, təşkilatlanması və təchizatı qəbul edilmiş qanunlarla normalaşdırıldı. Orduda vahid komandanlığın praktiki əsaslarını yaradaraq idarəetmə strukturlarına qarşı məsuliyyəti ciddiləşdirdi, ordu quruculuğunu dövlət quruculuğunun digər sahələri ilə üzvü şəkildə əlaqələndirdi. Ordu dövlət üçün prioritet məsələ oldu, tələbatları vaxtı-vaxtında ödənildi, bu istiqamətdə dövlətin bütün orqanlarının cavabdehliyi artırıldı. Dövlətin və xalqın mənafelərinə cavab verən hərbi siyasət müəyyənləşdirildi ki, bununla da ordu quruculuğunun vəzifələri, onların icra yolları konkretləşdirildi, dövlətin etibarlı müdafiə qabiliyyətinin yaradılması üçün əməli addımlar atıldı.

Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin siyasi kursunu ordu quruculuğunda da uğurla davam etdirir. Xalqın orduya doğma münasibəti, xalqın ordunu qayğı ilə əhatə etməsi daha da möhkəmlənib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən müdrik siyasət qısa vaxtda Azərbaycan Ordusunu gücləndirdi. Bunu beynəlxalq ekspertlər də etiraf edirlər. Dövlətimizin siyasi və iqtisadi baxımdan davamlı inkişafı ordumuzun gələcəkdə də öz inkişaf tempini saxlaması üçün əsaslı bir təminatdır.

Ordu quruculuğunu hər zaman diqqət mərkəzində saxlayan Ali Baş Komandan bu barədə deyib: "Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq".

**(Ardı 5-ci səhifədə)**

# Baş Qərargah rəisi bir neçə döyüş mövqeyində olub



*26 İyun - Silahlı Qüvvələr Günü və Qurban bayramı münasibətilə müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və nazirliyin digər vəzifəli şəxsləri Quru Qoşunları komandanlığında və Qarabağ iqtisadi rayonunda yerləşən hərbi hissələrdə olublar.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə general-polkovnik Kərim Vəliyev Quru Qoşunlarının Döyüşü İdarəetmə Mərkəzində idarə heyəti ilə xidməti müşavirə keçirib, əməliyyat şəraiti barədə məruzələri dinləyib.

Baş Qərargah rəisi Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları aidiyyəti üzrə çatdırıb, onların dəqiq və vaxtında yerinə yetirilməsi məqsədilə bölmələrin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması, silah və texnikanın effektiv tətbiqinə dair müvafiq göstərişlər verib.

General-polkovnik Kərim Vəliyev şəxsi heyəti bayramlar münasibətilə təbrik edib, onlara xidməti fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra Kəlbəcər, Laçın və Ağdamda yerləşən hərbi hissələrdə və bir neçə döyüş mövqeyində olan Baş Qərargah rəisi hərbi qulluqçularla görüşüb, onların xidməti-döyüş fəaliyyəti ilə maraqlanıb və bayramlar münasibətilə müdafiə nazirinin təbriklərini çatdırıb. Döyüş növbətçiliyinin daha keyfiyyətli təşkili və aparılması, şəxsi heyətin sayıqlığının artırılması, həmçinin istənilən təxribatın qarşısının qətiyyətlə alınması ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

Sonda qurbanlar kəsilib, şəxsi heyətlə birlikdə nahar edilib.





# Əlahiddə Ümumqoşun Orduda növbəti “Zabit hazırlığı kursu”nun buraxılış mərasimi keçirilib





*Əlahiddə Ümumqoşun Orduda növbəti "Zabit hazırlığı kursu"nun uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, buraxılış mərasimində əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Məhəmməd Həsənov məzunları təbrik edib və ölkəmizdə aparılan ordu quruculuğundan danışıb. Qeyd olunub ki, Vətən müharibəsində qazanılan parlaq qələbədən sonra da ordumuzun döyüş və mənəvi-psixoloji hazırlıq səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə bacarığının artırılması, maddi-texniki bazanın inkişaf etdirilməsi diqqətdə saxlanılır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev iyunun 23-də hərbi qulluqçuların qarşısında çıxışı zamanı demişdir: "Biz bu gün Silahlı Qüvvələrimizi vahid proqram əsasında inkişaf etdiririk və əminəm ki, yaxın gələcəkdə bizim ordumuz yeni, yüksək səviyyəyə qalxacaqdır. Mən bunu artıq demişəm, bir daha demək istəyirəm, bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür".

General-mayor Məhəmməd Həsənov dövlət başçısının diqqət və qayğısı sayəsində doğma Naxçıvanda da hərbi infrastrukturun müasirləşdirilməsi üçün mühüm işlərin görüldüyünü diqqətə çatdırıb və kursu uğurla bitirən gənclərin hər zaman dövlət qayğısından bəhrələnərək vəzifələrinin öhdəsindən layiqincə gələcəklərinə inandığını bildirib.

Mərasimdə digər çıxış edənlər ixtisas hazırlığı kurslarının əhəmiyyətindən danışıb, məzunlara xidmətlərində uğurlar arzulayıblar.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib. Kurs birincisi xatirə lövhəsinə buraxılış emblemini vurub və məzunların ixtisaslarına uyğun vəzifələrə təyin olunmaları ilə bağlı əmr mərasim iştirakçılarına çatdırılıb. Əmr oxunduqdan sonra məzunların tribuna önündən təntənəli keçidi olub. Sonda xatirə şəkli çəkdirilib.





# Müdafiə Nazirliyinin məlumatı

İyunun 29-u saat 18:10 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən ordumuzun Xocalı rayonu istiqamətində yerləşən mövqeləri atıcı silahlardan atəşə tutulub.

Azərbaycan Ordusunun bölmələri tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

Bundan başqa, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Azərbaycan Ordusunun Şuşa və Füzuli rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

* * *

İyulun 3-ü saat 10:40-dan saat 11:40-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri ordumuzun Ağdam rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan bir neçə dəfə atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

Bundan başqa, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

*Heydər Əliyev - 100*

# Hərbi təhsilimizin Heydər Əliyevlə başlanan uğuru

Anadan olmasının 100 illiyi böyük təntənə ilə qeyd olunan Ulu Öndər Heydər Əliyevdən Azərbaycan xalqına miras qalmış çox dəyərli yadigarlardan biri də Cəmşid Naxçıvanski adına Hərbi Liseydir. Bu liseyin yaradılması Azərbaycanın dövlətçilik və hərb tarixində elə bir yaddaqalan hadisədir ki, vaxt ötdükcə onun həyatımızdakı yeri də, yaradıcısı olan Heydər Əliyevin dühasının əzəməti də daha aydınlığı ilə hiss olunacaqdır.

1971-ci il aprelin 29-da Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin büro iclası zamanı respublikada növbəti dəfə hərbi-kütləvi işlərin vəziyyəti və gedişi müzakirə olunanda Heydər Əliyev çox maraqlı, tarixi və cəsarətli bir çıxış etmişdi. Mərkəzi Komitənin bürosu respublikanın həyatı ilə bağlı rəhbər qərarları qəbul edən ali bir orqan idi. Büro iclasında respublikanın və xalqın həyatında əhəmiyyət kəsb edən məsələlər müzakirəyə çıxarılmışdı. Həmin məsələlərdən biri də respublika gəncləri arasında hərbi-kütləvi işlərin təşkilinin vəziyyəti idi.

Heydər Əliyev çıxışında bildirmişdi ki, son il yarım ərzində hərbi məsələ artıq üçüncü dəfə respublika rəhbərliyinin müzakirəsinə çıxarılmışdır. Yəni, gənclər arasında hərbi kütləvi işlərin təşkili, o cümlədən milli zabit kadrlarının hazırlanması məsələsi respublika rəhbərliyinin xüsusi diqqəti altında idi. Həmin iclasda Heydər Əliyev milli zabit kadrlarının hazırlanmasının əhəmiyyətini və zərurətini xüsusi olaraq qeyd etmişdi və bu məsələ ilə bağlı öz çıxışında belə bir fikir demişdi: "Qarşımızda çox böyük vəzifə dayanır və biz milli hərbi kadrlara malik olmasaq, bunu gələcək nəsillər bizə bağışlamaz". Yəni, Heydər Əliyev milli hərbçi kadrların hazırlanmasını xalqın və millətin gələcəyinə hesablanmış bir vəzifə kimi qəbul edir, respublikanın bütün rəhbər təşkilatları qarşısında bununla bağlı ciddi vəzifələr qoyurdu. Bu istiqamətdə görülməli işlərin ilhamvericisi məhz Heydər Əliyevin özü idi. Onun təşəbbüsü və təkidi ilə 1971-ci il iyulun 20-də xüsusi orta internat məktəbin yaradılması haqqında qərar qəbul edildi. Həmin ilin noyabrında Heydər Əliyev bayraq təqdim etdi və məktəbə Cəmşid Naxçıvanskinin adının verildiyini açıqladı.

Xüsusi internat məktəbinə Cəmşid Naxçıvanskinin adının verilməsi də təsadüfi deyildi. Cəmşid Naxçıvanski Azərbaycanın tanınmış generalı, xalqımızın hərb tarixində şərəfli yeri olan Naxçıvanskilər nəslinin nümayəndəsi idi. Bu nəsil Azərbaycan tarixinə Kəlbalı xan Naxçıvanski, İsmayıl xan Naxçıvanski, Hüseyn xan Naxçıvanski kimi generallar bəxş etmişdi. 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda general Cəmşid Naxçıvanskinin anadan olmasının 75 illiyi respublika səviyyəsində qeyd edilirdi. General Cəmşid Naxçıvanski Heydər Əliyevin 1969-cu ilin yayında respublika rəhbəri seçilməsindən sonra yubileyi ümumxalq səviyyəsində qeyd edilən ilk tanınmış general idi. Bununla bağlı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Nazirlər Sovetinin xüsusi qərarı var idi. Həmin qərarda Cəmşid Naxçıvanskinin adının əbədiləşdirilməsi məsələsi də nəzərdə tutulmuşdu. Xüsusi orta internat məktəbin yaradılmasına başlayanda bu məktəbə C.Naxçıvanski kimi bir generalın adının verilməsi məqsədəuyğun sayılmışdı.



Hazırda hərbi lisey adlandırılan bu təhsil ocağının yaradılmasında başlıca məqsəd azərbaycanlı gənclər üçün ali hərbi təhsil məktəblərinə aparacaq yolun asanlaşdırılması idi. Milli hərbi kadrların sayının artırılması Heydər Əliyevin əzəli arzusu idi. Bununla o, Azərbaycanda hərbi işin canlandırılmasına, şərəfli hərb tarixinin davam etdirilməsinə çalışırdı. Bu barədə özü belə deyirdi: "Ali Hərbi Məktəblərə, əsasən, ruslar, ukraynalılar, belaruslar qəbul oluna bilərdilər. Qalan millətlərdən gənclərin hərbi məktəblərə qəbul edilməsini çox nadir hadisə kimi qəbul etmək olardı. Bunları görəndə, bu barədə fikirləşəndə düşünürdüm, yaxşı, biz Sovetlər İttifaqının bərabər hüquqlu müttəfiq respublikasıyıq, böyük səlahiyyətlərimiz var. Biz nə üçün orduda təcrid olunuruq? Demək, əlavə tədbirlər görmək lazım idi ki, bu maneəni keçəsən və azərbaycanlıları orduda komandan, zabit vəzifəsinə çatdıra biləsən".

Milli hərbi kadrların sayının artırılması və sovet ordusunda azərbaycanlıların layiqli yer tutması üçün Heydər Əliyev tərəfindən görülən əlavə tədbirlərin sayı çox idi. Lakin onlardan ən səmərəlisi və dövrünə görə ən cəsarətlisi hərbi liseyin əsasının qoyulması idi. Milli hərbi kadrların hazırlanması və sayının artırılması geniş planda milli təfəkkürün oyanması, sosialist ideoloji ehkamlarına ciddi zərbə demək idi. Buna görə də mərkəzi sovet orqanlarının nümayəndələri bir-birinin ardınca Bakıya gəldilər, xüsusi orta məktəbin yaradılmasının qanunsuz olduğunu bildirdilər, onun ləğvini tələb etdilər. "Daha sonra bir dəfə də gəldilər. Mən hər dəfə onların cavabını verdim. Axırda da Moskvaya getdim, ən yüksək səviyyədə bunu müzakirə etdim. O səviyyədə mənim arqumentlərimə etiraz etmək mümkün deyildi. Amma aşağılar, təbiidir ki, məntiqsiz işlər görürdülər. Amma yüksək səviyyədə mən məntiqlə danışanda, onlar da məntiqlə danışmalı idilər. Məni aldatmaq olmaz. Beləliklə, mən məktəbi bu bəlalardan xilas etdim", - böyük tarixi şəxsiyyət belə deyirdi.

Heydər Əliyev məktəbi kimi tanınan hərbi liseyin şərəfli tarixinin başlanğıcı belə qoyuldu. Ulu Öndər bu təhsil ocağına hər zaman qayğı göstərirdi. Əsası qoyulandan sonra Heydər Əliyev hər il bu təhsil ocağına gəlirdi, çox böyük sevinc hissləri və mehribanlıqla liseydə təhsil alan kursantlarla görüşürdü, onların təhsil qayğıları ilə yaxından maraqlanırdı. Hətta daha yüksək vəzifəyə irəli çəkilib Moskvaya gedəndən sonra da bu təhsil ocağını unutmurdu, məzuniyyət üçün Bakıya gələndə mütləq ora baş çəkirdi. Bu məktəbə olan münasibətini belə ifadə edirdi: "Bilirsiniz, sizə səmimi deyirəm. Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona, bax, bu cür baxacağam".

İndi Azərbaycan Respublikasının hərbi həyatını bu lisey olmadan təsəvvür etmək mümkün deyildir. Hələ sovet hakimiyyəti illərində bu təhsil ocağını bitirən nə qədər azərbaycanlı gənc ölkənin nüfuzlu hərbi məktəblərində təhsil aldılar və bununla Azərbaycanda yeni zabitlər nəslinin sıralarını tamamladılar.

Azərbaycan Respublikasının müstəqilliyi dövründə bu məktəbin tarixində yeni bir dövr başladı. Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandanı kimi Ulu Öndər Heydər Əliyevin rəhbərliyi və qayğısı ilə hərbi liseyin fəaliyyəti daha böyük uğurlarla tamamlanırdı. Məhz orada hərbçi peşəsinin ilkin sirlərinə yiyələnmiş zabitlər müstəqil Azərbaycan Ordusunun kadr həyatının əsasını təşkil etdilər. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında aparılan Vətən müharibəsinin ön sıralarında misilsiz qəhrəmanlıq göstərən zabitlərin böyük bir hissəsi də məhz C.Naxçıvanski adına Hərbi Liseyin yetirmələri idi. Bütünlükdə, mövcudluğu dövründə C.Naxçıvanski adına Hərbi Liseyi 14 min gənc bitirmişdir. Onlardan 20 nəfəri general kimi ali hərbi rütbəyə yüksəlmişdir. Hərbi liseyi bitirənlər arasında 10 nəfər Azərbaycanın Milli Qəhrəmanı, 19 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüşdür. Respublikanın orden və medalları ilə təltif olunanların sayı daha çoxdur. Hərbi liseyin məzunlarından 158 nəfər döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmişdir. Onların xatirəsi və qəhrəmanlıq yolu bu gün də liseyin kursantları üçün bir nümunə olaraq qalmaqdadır.

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda ordu quruculuğunun Türkiyə modeli üzərində aparılması mühüm bir vəzifə kimi irəli sürülmüşdür. Bəllidir ki, Türkiyə ordusu indi dünyanın ən güclü orduları sırasındadır və belə bir səviyyənin əldə edilməsində Türkiyənin daxili potensialı ilə bərabər, həm də dünyanın qabaqcıl təcrübəsinin öyrənilməsi və tətbiqi böyük əhəmiyyət kəsb etmişdir. Türkiyənin zəngin təcrübəsi isə indi Azərbaycanda öyrənilir və tətbiq edilir. Azərbaycanın xüsusi təhsil müəssisələri də bu prosesdən kənarda qalmamışdır. Türkiyənin hərbi təhsil sahəsindəki təcrübəsi nəzərə alınmaqla, Azərbaycanda hərbi təhsilin yeni standartlar və tələblər üzərində qurulması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 mart 2022-ci il tarixli Fərmanı ilə Milli Müdafiə Nazirliyi tərkibində Milli Müdafiə Universiteti yaradıldı. İndi Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələri bu qurumun tərkibində birləşib. Milli Müdafiə Universitetinin yaradılması sadəcə bir struktur dəyişikliyi deyildir. Bu strukturun yaradılması ilə xüsusi təyinatlı təhsil müəssisələrində, o cümlədən hərbi liseydə müasir dünya standartlarına cavab verən, eləcə də hərbi təhsil sahəsində Azərbaycanın özünün qazandığı ən yaxşı təcrübə əsasında yeni tədris prosesi qurulmuşdur. Bu yenilik tədris prosesinin gedişində və nəticələrində özünü göstərib. Belə ki, Dövlət İmtahan Mərkəzinin məlumatına görə, 2023-cü ildə respublika üzrə XI sinif şagirdlərinin buraxılış imtahanlarında həm Cəmşid Naxçıvanski adına Hərbi Liseyin, həm də Naxçıvanda yerləşən Heydər Əliyev adına Hərbi Liseyin XI sinif kursantlarının göstəriciləri respublika üzrə orta göstəricidən daha yüksəkdir.

Ümumtəhsil məktəblərinin şagirdlərinin böyük bir hissəsi məktəbdən kənar özəl hazırlıqlarda da iştirak edirlər. Hərbi liseylərdə isə kursantlar günün nizam qaydalarına uyğun olaraq yalnız lisey daxilində tədrislə məşğul olurlar. Bununla belə, onlar respublika üzrə yüksək təhsil nəticələri göstərməyə müvəffəq olublar. Şübhə yoxdur ki, kursantlar savadlı və bilikli zabitlər kimi Azərbaycan Ordusunda öz layiqli yerlərini tutacaqlar və sədaqətli xidmətləri ilə Heydər Əliyevin əsasını qoyduğu məktəbin şərəfli tarixini daha da zənginləşdirəcəklər.

**Ehtiyatda olan polkovnik**
**Mehman SÜLEYMANOV**
**tarix üzrə elmlər doktoru,**
**dosent,**
**polkovnik**
**Rəşad TAHİROV**
**Milli Müdafiə Universitetinin**
**Hərbi Elmi-Tədqiqat İnstitutu**

# "Düşmən bir daha təxribat törədərsə, yenə cavabını alacaq"

*Ermənilərin belə təxribatları gözlənilən idi. Ona görə də Prezidentimiz çox ciddi şəkildə sülh müqaviləsinin imzalanmasını tələb edir. Nə qədər ki, sülh müqaviləsi imzalanmayıb, bu cür təxribatlar olacaq. Rəşadətli Azərbaycan Ordusu bu cür təxribatların cavabını həmişə verib və bundan sonra da verəcək.*

Bunu AZƏRTAC-a Qarabağ qazisi, Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası İctimai Birliyinin sədri Rey Kərimoğlu iyunun 26-da Qarabağda törədilən erməni təxribatına münasibət bildirərkən deyib.

O qeyd edib ki, düşmən təxribatının qarşısı qətiyyətlə alınıb və ağır zərbə vurulub: "Düşmən yenə təxribat törədərsə, cavabını alacaq. Bəzi məlumatlara görə, qanunsuz hərbi birləşmələr tərəfindən yeni təxribatlara hazırlıq gedir və belə olarsa, sərt və adekvat cavab olacaq, qanunsuz birləşmələrin hərbi infrastrukturu məhv ediləcək. Necə ki, sentyabr döyüşləri, Fərrux, Sarıbaba əməliyyatlarında düşmənin xeyli texnikası, canlı qüvvəsi məhv edildi. Ali Baş Komandanımızın bildirdiyi kimi, düşmən atəş açacağı təqdirdə, atəş nöqtəsi susdurulacaq və nəzarətə götürüləcək. Belə də olmalıdır, başqa yol yoxdur".

Qarabağ qazisi deyib ki, Ermənistan sülh istəmirsə, xoş rəftarı başa düşmürsə, "Dəmir yumruq" həmişə yerindədir. Onlar belə təxribatlar törətdikcə, başlarına yenəcək.

Rey Kərimoğlu son təxribatın Vaşinqtonda aparılan danışıqlar ərəfəsində törədilməsinin təsadüfi olmadığını vurğulayıb. "Ermənistan həmişə belə həssas məqamlarda təxribatlar törədir. Qarabağ problemi yaranandan bu günə qədər Qərb də, Rusiya da bu məsələdə öz maraqlarını güdür. Bu təxribat ermənipərəst və islamafob qüvvələrin, Avropa Parlamenti daxilində də bəzi qüvvələrin maraqlarına cavab verir. Otuz il idi problemin həllini uzadırdılar. Məcbur olduq BMT-nın qətnamələrini özümüz icra etdik. Bundan sonra da belə olacaq", - deyə İctimai Birliyin sədri vurğulayıb.

# Azərbaycan Ordusunda Qurban bayramı münasibətilə tədbirlər keçirilib



Azərbaycan Ordusunun birlik, birləşmə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində Qurban bayramı münasibətilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Keçirilən tədbirlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və müdafiə naziri general-polkovnik Zakir Həsənovun Qurban bayramı münasibətilə təbrikləri şəxsi heyətə çatdırılıb.

Hərbi qulluqçuların iştirakı ilə qurbanlıqlar kəsilib, onlar üçün bayram süfrələri təşkil edilib.

* * *

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Qurban bayramı münasibətilə Bakı şəhərində, eləcə də respublikamızın digər bölgələrində şəhidlərimizin məzarları ziyarət olunub, onların ailə üzvlərinə və hərbi əməliyyatlar zamanı sağlamlığını itirən döyüşçülərimizə baş çəkilib.

Keçirilən görüşlərdə şəhid ailələri, sağlamlığını itirən döyüşçülərimiz və müharibə veteranlarının daim dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanıldığı qeyd olunub, onlara Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdırılıb və bayram sovqatları təqdim edilib.

Şəhid ailələri və hərbi əməliyyatlar zamanı sağlamlığını itirən döyüşçülərimiz onların sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğı və problemlərinin həlli istiqamətində göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbirlər çərçivəsində, həmçinin hərbi qulluqçular tərəfindən uşaq evləri ziyarət edilib, uşaqlara müxtəlif hədiyyələr təqdim olunub.

* * *

Qurban bayramı münasibətilə Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində tədbir keçirildi.





1-ci dərəcəli kapitan Kamil Məmmədov çıxış edərək zabitləri, miçman və matrosları müsəlman dünyasının saflıq, mənəvi birlik, həmrəylik və qardaşlıq rəmzi olan Qurban bayramı münasibətilə təbrik etdi, onlara şərəfli və müqəddəs xidmətlərində uğurlar arzuladı. Bildirdi ki, İkinci Qarabağ müharibəsində erməni işğalçıları üzərində qazanılan tarixi qələbədə Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti də böyük igidlik və qəhrəmanlıqlar göstərib. Göstərilən bu qəhrəmanlıqlar onların vətənpərvərliyinin bariz nümunəsidir.

2-ci dərəcəli kapitan Vüsal Rəsulov çıxışı zamanı bildirdi ki, artıq üç ildir digər bayramlarımız kimi, Qurban bayramını da Zəfər ovqatı ilə qarşılayırıq. "Azərbaycan Ordusunun zabit və əsgərlərinin İkinci Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlığı və fədakarlığı sayəsində 30 ilə yaxın işğal altında qalmış torpaqlarımız erməni vandallarının əsarətindən azad olundu. Məhz buna görə ordumuzda Qurban bayramını böyük sevinc hissləri ilə keçiririk. Bütün mütərəqqi islami dəyər və ənənələrin uca tutulduğu, böyük hörmət bəsləndiyi, rəğbət göstərildiyi Azərbaycanda dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan müqəddəs Qurban bayramı, milli-mənəvi dəyərlərə möhkəm bağlılığın, humanizm, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsidir. Qurban bayramı insanlığın müqəddəs bir günüdür".

2-ci dərəcəli kapitan İlhami Quliyev və başqaları da çıxışlarında Qurban bayramının tarixindən, onun insanlar üçün vacib olan ənənələrindən və əhəmiyyətindən geniş söhbət açdılar. Şəxsi heyəti bu əlamətdar bayram münasibətilə təbrik edib, xidmətlərində uğurlar arzuladılar.

Axund Faiq Mehdiyev dini dualar oxuduqdan sonra qurbanlıqlar kəsildi.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Orduda komanda-qərargah təlimi keçirilib



*Əlahiddə Ümumqoşun Ordunun 2023-cü ilin döyüş hazırlığı planına əsasən, komanda-qərargah təlimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilən birləşmə, hissə və bölmələr təlim-döyüş həyəcan siqnalı ilə qaldırılaraq daimi dislokasiya məntəqələrindən cəmləşmə və döyüş təyinatı rayonlarına çıxarılıb.

Komandir heyətinin yaranmış taktiki şəraitə uyğun qısa müddətdə qərar qəbuletmə üzrə bacarıqlarının və bölmələrin daim döyüşə hazırolma vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə bölmələr atəş və start mövqelərini tutduqdan sonra ərazidə maskalanma və mühafizə tədbirlərini yerinə yetiriblər.

Təlim zamanı səhra rabitə qovşağının ərazidə açılması praktiki olaraq məşq etdirilib. İdarəetmənin təşkili üçün ərazidə açılmış dayaq və mobil radioqovşaqlardan qərargahlararası məlumatlar mübadiləsinin yüksək keyfiyyətlə yerinə yetirilməsi təmin edilib.

Aviasiya bölmələrinin təlimə hazırlıq məruzələri dinlənildikdən sonra Mİ-17 nəqliyyat-döyüş helikopterlərindən yer hədəflərinə müxtəlif döyüş manevrləri ilə hücum məşq etdirilib.

Təlimə cəlb edilmiş hava hücumundan müdafiə bölmələri tərəfindən müxtəlif hündürlük diapazonununda fəaliyyət göstərən hava düşməninin zərbələrinin dəf edilməsi üzrə tapşırıqlar icra edilib.

Komandir və döyüş heyətlərinin real döyüş şəraitində hava hücumundan müdafiə döyüşünün aparılması vərdişlərinin təkmilləşdirilməsi məqsədilə ordu aviasiyası praktiki uçuşlarla hava düşmənini təqlid edib.







Radiotexniki bölmələrin kəşfiyyat vasitələri ilə düşmən hədəfləri aşkarolunma həddinə çatdıqda əldə olunmuş məlumatlar komanda məntəqəsinə ötürülüb. Döyüş heyətləri tərəfindən hava hücum vasitəsinin dövlət hava sərhədinə uçub çatma vaxtı və zenit-raket divizionlarının məhvetmə zonasına girmə ardıcıllığı üzrə hesabatlar aparılıb. Alınmış döyüş tapşırığına əsasən zenit-raket bölmələrinin komanda məntəqəsi hədəflərin aşkarlanması, izlənməsi və məhv edilməsi üzrə fəaliyyətləri yerinə yetirib.

Real döyüş şəraitinə uyğun keçirilən təlimdə artilleriya və minaatan bölmələri şərti düşmən hədəflərini aşkar edərək sərrast atəşlə məhv edib.

Təlimdə döyüş tapşırıqlarının qısa zaman ərzində qətiyyət və uğurla yerinə yetirilməsi nəticəsində bölmələrin uzlaşmış fəaliyyətinə və komandirlərin bölmələri idarəetmə vərdişlərinin təkmilləşdirilməsinə nail olunub.

# "Qüdrətli Silahlı Qüvvələr Heydər Əliyev dühasının bəhrəsidir

*Azərbaycan Xalq Cümhuriyyəti elan edildiyi ilk günlərdən Silahlı Qüvvələrin təşkilinə başlanılıb və qısa zamanda buna müvəffəq olunub. Belə ki, Cümhuriyyətin Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə ilk ordu hissəsi - Əlahiddə Azərbaycan korpusu təşkil edilib.*

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev həmin faktı əsas tutaraq 1998-ci il mayın 22-də müvafiq Fərman imzalayıb. Həmin sənədə əsasən, 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olunub. Bundan sonra hər il məhz bu gün ölkəmizdə Silahlı Qüvvələri Günü kimi qeyd edilir. Bu, öz keçmişinə hörmət, tarixi günün rəsmiləşdirilməsi olmaqla bərabər, hərbçilərimizə verilən növbəti dəyərin təcəssümü idi.

Bunu AZƏRTAC-a açıqlamasında hərbi prokurorun böyük köməkçisi - Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev deyib.

O vurğulayıb ki, 1969-cu il iyulun 14-də hakimiyyətə gələn Ümummilli Liderin zəngin və çoxşaxəli fəaliyyətinin prioritet istiqamətlərindən birini də Azərbaycanın təhlükəsiz gələcəyinə təminat, müstəqilliyinə zəmanət verən ordu quruculuğu təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ölkəmizdə yaranmış tənəzzül Ulu Öndərin ölkəmizə birinci dəfə rəhbərliyi dövründə aradan qaldırıldı. Azərbaycanda SSRİ müdafiə sənayesinin on bir böyük zavodunun tikilməsi, həmin müəssisələrdə o dövrün ən müasir texnologiyalarının tətbiqi ölkəmizin müdafiə sənayesi istehsalında keyfiyyətli məhsulların həcmini dəfələrlə artırırdı. Bu da müstəqilliyə doğru gedən yolda vacib amillərdən idi. Bununla yanaşı, milli hərbi kadrların hazırlanması prosesi də sürətlə gedirdi. Müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə ixtisaslı milli mütəxəssislərin hazırlanması istiqamətində dahi şəxsiyyətin uzaqgörənliyinin parlaq sübutu idi. Ordu quruculuğunda keyfiyyətli hərbi təhsilin formalaşdırılmasının və ixtisaslı gənc hərbi kadrların hazırlanmasının son dərəcə strateji əhəmiyyətli məsələ olduğunu hər zaman vurğulayan Ümummilli Lider bu sahəni də daim diqqət mərkəzində saxlayırdı. Qeyd olunan məsələnin vacibliyini nəzərə alan müdrik rəhbər Heydər Əliyev hələ sovetlər dövründə milli kadrların, xüsusilə peşəkar hərbçilərin hazırlanması istiqamətində misilsiz işlər gördü. O, azərbaycanlı gənclərin hərtərəfli formalaşması üçün onların ali təhsil, o cümlədən xaricdə təhsil almalarına xüsusi önəm verməklə yüzlərlə şəxsin müxtəlif dövlətlərin ali təhsil müəssisələrinə, həmçinin ali hərbi məktəblərinə qəbul olunmaları istiqamətində əməli tədbirlər həyata keçirirdi. Bununla da Ümummilli Liderin şəxsi müdaxiləsi və qayğısı ilə ötən əsrin 70-ci illərindən başlayaraq ali hərbi məktəblərə qəbul edilən gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başladı və bu sahədə də milliləşdirmə prosesi sürətləndi.



Bildirilib ki, digər istiqamət isə ölkə daxilində milli təhsil müəssisələrinin təkmilləşdirilməsi və yeni təhsil ocaqlarının yaradılması idi. Müttəfiq respublikalar arasında ilk dəfə və yalnız Bakıda hərbi məktəbin açılmasına mərkəzi hakimiyyətdən icazə almaq çox çətin olsa da, Ulu Öndər buna nail oldu. Məhz onun əzmi sayəsində 1971-ci il iyulun 20-də Silahlı Qüvvələrin peşəkar milli hərbçi heyəti ilə komplektləşdirilməsində müstəsna əhəmiyyəti olan ixtisaslaşdırılmış internat məktəb yaradıldı. İnternat məktəbin fəaliyyətə başlaması Azərbaycanda hərb sahəsinə marağın daha da güclənməsinə rəvac verdi.

"Böyük şəxsiyyət Heydər Əliyev növbəti dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da köklü islahatlar həyata keçirildi. Silahlı Qüvvələrin beynəlxalq əlaqələrinin genişləndirilməsini də hər zaman diqqətində saxlayan Ali Baş Komandan Heydər Əliyev onu müasirləşdirmək üçün sovet hərb sistemini dəyişib, NATO standartlarını tətbiq etməyin zəruriliyini, Şimali Atlantika Alyansının isə beynəlxalq münasibətlər sistemində yeri və rolunu nəzərə alaraq, ölkəmizin NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması barədə qətiyyətli qərar verdi və 1994-cü il mayın 4-də Brüsseldə təşkilatın çərçivə sazişini imzaladı. Bundan sonra digər ölkələrin qanunvericiliyindən və təcrübəsindən bəhrələnməklə, eləcə də hərb tariximizə əsaslanılmaqla mükəmməl hərbi qanunvericilik bazası yaradılması prosesi başladı, həyata keçirilən mühüm tədbirlər sayəsində çağırış və səfərbərlik işi də xeyli təkmilləşdirildi, həmçinin hərbi hissələrdə möhkəm intizam yaradıldı və qanunun aliliyi prinsipi bərqərar oldu. Bununla da, görülən işlər qısa zamanda bəhrəsini verdi və Azərbaycanın qüdrətli ordusu yaranmağa başladı", - deyə F.Əliyev diqqətə çatdırıb.

O deyib ki, Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu strategiyasını dövrün tələblərinə uyğun reallaşdıran Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə bu sahədə həyata keçirilən köklü islahatların nəticəsi olaraq müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir Azərbaycan Silahlı Qüvvələri formalaşdı.

Bütün bunların nəticəsində 44 günlük Vətən müharibəsində də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı tarix yazan hərbçilərimiz düşmən üzərində parlaq qələbəmizi təmin etdi, hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə işğal altında olan dədə-baba torpaqlarımız azad edilərək, ölkəmizin ərazi bütövlüyü bərpa olundu.

"İftixarla vurğulanmalıdır ki, uğurlarımızı şərtləndirən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq yüksək məharətlə davam etdirən Prezident İlham Əliyevin müdrikliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi və millətimizin əzmkarlığı, eləcə də sarsılmaz xalq-iqtidar bağlılığıdır.

Qürurverici və sevindirici haldır ki, Ermənistanın Vətən müharibəsindən sonra ara-sıra törətdiyi növbəti təxribatların qarşısı qətiyyətlə alınır. Silahlı Qüvvələrimizin rəşadəti və hərbçilərimizin gücü bir daha sübut edir ki, Prezidentin dediyi kimi: "Dəmir yumruq yerindədir". Əminik ki, "Dəmir yumruq" dövlətimizə və xalqımıza qarşı təxribat törətmək istəyənləri hər zaman əzəcək", - deyə baş ədliyyə müşaviri qeyd edib.

# Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri, qürur mənbəyidir

**(Əvvəli 1-ci səhifədə)**

Son illər ərzində Azərbaycan Respublikası hərbi potensialını xeyli artırıb. Ölkəmizə ən müasir silah-sursat, texnika, avadanlıq gətirilib. Hazırda maddi-texniki təchizat və döyüş qabiliyyəti baxımından Azərbaycan Ordusu ən güclü ordular sırasındadır. 2016-cı ilin aprelində Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğratdı, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi, minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu Aprel döyüşləri ilə xalqımıza ilk qələbə sevincini yaşatdı.

Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısının alınması üçün həyata keçirilən əks-hücum əməliyyatı zamanı pilotsuz uçuş aparatları, müasir silah və texnikaların səmərəli tətbiqi nəticəsində düşmənə güclü zərbələr endirildi. Əməliyyat zamanı düşmənin təmas xəttinin dərinliklərində formalaşdırdığı əks-hücum əməliyyatı qruplaşmalarına, artilleriya, reaktiv və minaatan batareyalarına atəş zərbələri endirildi və düşmən böyük itkilərə məruz qaldı.

Bu döyüşlər Azərbaycan Ordusunun peşəkarlıq, mənəvi-psixoloji hazırlıq, döyüş ruhu, texniki-təchizat və silah-sursat baxımından Ermənistan ordusunu nə qədər qabaqladığını göstərdi.

Naxçıvan Muxtar Respublikası ərazisində keçirilən Günnüt əməliyyatı da Azərbaycan Ordusunun uğurları sırasındadır.

Bu uğurlar Azərbaycanın hərbi-siyasi mövqelərini daha da gücləndirdi, işğal altında olan bütün ərazilərimizi azad etməyə qadir olduğunu sübuta yetirdi.

2020-ci ilin 27 sentyabrından 8 noyabr tarixinə qədər davam edən Vətən müharibəsi Azərbaycanın tarixi Zəfəri ilə başa çatdı. Ölkənin ərazi bütövlüyü bərpa olundu. Bu tarixi qələbə, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin iradəsi və rəşadətli Azərbaycan Ordusunun döyüş meydanında sərgilədiyi şücaəti ilə qazanıldı.

Azərbaycan xalqı öz əzmini, birliyini, gücləndiyini sübut etdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 30 illik həsrətə son qoydu. Biz öz əzəli torpaqlarımıza Zəfər bayrağı ilə qayıtdıq.

44 günlük müharibənin hər saniyəsində qardaş, dost və müttəfiq Türkiyə Respublikası Azərbaycanın yanında olduğunu göstərdi. Bu baxımdan Şuşa Bəyannaməsi Azərbaycan ilə Türkiyənin qardaşlığını bütün dünyaya bildirən bir mesajdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2021-ci il iyunun 15-də Şuşada imzaladığı Bəyannamə iki qardaş ölkə arasında tarixi münasibətlərin yeni mərhələsinin əsasını qoydu. Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları ölkələrimizin birliyini nümayiş etdirir.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bunu biz bilirik, Azərbaycan xalqı bilir və bütün dünya bilir. Güclü orduların reytinqlərində Azərbaycan Ordusunun çox yüksək yeri vardır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, günbəgün artır. Ordumuzda nizam-intizam hökm sürür. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Biz son illər ərzində milyardlarla dollar dəyərində ən müasir silah-sursat, hərbi texnika almışıq. O texnikalar ən son texnologiyaya malikdir" fikirləri məhz bu baxımdan diqqəti çəkir.

Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə 2022-ci ildə Milli Müdafiə Universiteti yaradılıb. Milli Müdafiə Universitetinin başlıca vəzifələrindən biri Azərbaycan Ordusunda ali hərbi təhsilin bütün səviyyələri və əlavə təhsil proqramları üzrə ixtisaslı kadrlar hazırlamaqdır. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 mart tarixli Fərmanı ilə "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nda dəyişikliklər edilib. Silahlı Qüvvələrin Hərbi Akademiyası təhsil müəssisəsi kimi ləğv olunub, onun maddi-texniki bazasında iki müstəqil institut - Hərbi Elmi-Tədqiqat İnstitutu və Hərbi İdarəetmə İnstitutu yaradılıb. Bu gün, eyni zamanda, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi fəaliyyətini Heydər Əliyev adına Hərbi İnstitut kimi davam etdirir. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey, Heydər Əliyev adına Hərbi Lisey və Hərbi Tibb fakültəsi də Milli Müdafiə Universitetinin tabeliyinə verilib.

Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı əks-hücum əməliyyatı zamanı son dərəcə yüksək dəqiqliklə hədəfi vuran və qarşısıalınmaz zərbə gücünə malik silahlarla, düşmənin ağır texnikasını və canlı qüvvəsini darmadağın edən pilotsuz uçuş aparatları ilə ordumuzun tamamilə modernləşdirilməsi Azərbaycanda ordu quruculuğu istiqamətində görülən ciddi tədbirlərin kiçik bir hissəsidir. Qürur hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycan Ordusu hazırda dünyanın ən güclü ordularından biridir. Bu uğurların qazanılmasında Müzəffər Ali Baş Komandanın misilsiz xidmətləri danılmazdır. Hər bir Azərbaycan vətəndaşı onu xarici və digər təhlükələrdən layiqincə müdafiə edəcək ordunun olmasına əmindir.

Azərbaycan Ordusu müstəqilliyimizi və ərazi bütövlüyümüzü əbədi qorumaq gücündədir! Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir! Ordumuza güvəncimiz tam, sevgimiz sonsuzdur.

**Kapitan
Günay TAĞIYEVA
"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır

**Suallar:**

**1. Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir.**

**2. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır.**

## Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Həmin dahilər öz qətiyyətləri ilə mənsub olduğu xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynayıblar. Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüş Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir.

Ulu Öndər Heydər Əliyev rəhbərlik etdiyi 30 illik dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Azərbaycan Respublikasının 1969-cu ildən bəri yaşayan dövrü xalqımızın tarixinə Ulu Öndər Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur. Azərbaycan Respublikasının müasir tarixində 1969-cu il respublikamızın sosial-iqtisadi və mədəni inkişafında dönüş ili olmuşdur. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyəti, misilsiz təşəbbüskarlıq və nəhəng enerji ötən əsrin 70-ci illərinin bariz əlamətinə çevrildi. Bu illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur.

Tarixi bu dövrdən etibarən başlanan Ulu Öndər Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqaməti xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi ilə səciyyələnmişdir. Xalqın tarixi yaddaşının özünə qaytarılması Ulu Öndərin qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratdı.

Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması, gənc və yeniyetmə azərbaycanlı oğlanların həmin məktəbə, habelə respublikadan kənarda ali hərbi məktəblərə cəlb olunması Azərbaycan Respublikası üçün peşəkar hərbi kadrlar hazırlanması işinə böyük təkan verdi. Ulu Öndərin uzaqgörənliyi sayəsində gələcəkdə müstəqil Azərbaycan Ordusunun formalaşması üçün kadr potensialının həlli yolunda mühüm addım atıldı.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk illərdə ölkədə hakimiyyət uğrunda başlanan silahlı mübarizə, hakimiyyətlərin bir-birini əvəz etməsi və çoxhakimiyyətliliyin hökm sürməsi müstəqil dövlətçiliyə ağır zərbələr vurdu. Ölkədə yaranmış ictimai-siyasi xaos, anarxiya, zorakılıq halları, milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə və hakimiyyətin tam iflasına rəvac verirdi. Nəticədə, 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhv olmaq təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə gətirildi. Belə bir vəziyyətdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı bu təhlükəli vəziyyətdən çıxarmaq üçün gərgin işə başladı. İlk növbədə hakimiyyət vakkumu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış destruktiv qüvvələr xalqın fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsinin qarşısı alındı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi. 1994-cü ilin mayında Ermənistan-Azərbaycan arasında mövcud olmuş silahlı münaqişədə atəşkəsə nail olundu. Ulu Öndər Azərbaycan həqiqətlərini, xüsusilə Ermənistan-Azərbaycan arasında mövcud olmuş Qarabağ münaqişəsinin mahiyyətini dünya ictimaiyyətinə çatdıra bildi.

Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr Ali Baş Komandan Heydər Əliyevin məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində ləğv edildi, Azərbaycan Ordusunun formalaşdırılması, Azərbaycan Respublikasının nizami Silahlı Qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikası rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə əsl dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu başlandı.

Azərbaycan Respublikasının daxilində yaranmış sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqlardan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalandı. Azərbaycan Respublikasının iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft müqaviləsi ölkə iqtisadiyyatının dinamik inkişafının əsasını qoydu və bu gün onun praktiki nəticələri göz qabağındadır. Azərbaycan dövlətinin iri beynəlxalq lahiyələrdə iştirakı Böyük İpək Yolunun bərpası, nəqliyyat dəhlizlərinin Azərbaycan Respublikasının ərazisindən keçməsi Ulu Öndərin neft strategiyasının həyata keçirilməsinin bəhrəsidir.

Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada yerini müəyyən etmiş, milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək dünya azərbaycanlıları üçün möhkəm zəmin yaratmışdır.

Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Ulu Öndər Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Ulu Öndər Heydər Əliyev öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış Azərbaycan xalqının Ümummilli Liderinə çevrilmişdir. Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.

## Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır

Qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycan dövlətinin bugünkü reallıqlarıdır. 20 il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək Ulu Öndərinin siyasi kursuna dahi şəxsiyyətin layiqli davamçısı cənab İlham Əliyevə səs verərək Azərbaycan Respublikasının Prezidenti seçdi. Yeni əsrin yeni lideri cənab İlham Əliyev bu 20 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. Bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev "güclü dövlət" konsepsiyasının əsasını üç mühüm güc - iqtisadi-siyasi, hərbi güc və onların vəhdəti təşkil edir.

Ulu Öndərin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" kəlamı üzərində qurulan siyasət nəticəsində ötən 20 il ərzində misilsiz uğurlara imza atılıb. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə əsası qoyulan neft strategiyası sonrakı illərdə də davam etdirilib. Azərbaycan Respublikasının qazandığı nailiyyətlərin təməlində məhz bu strategiya dayanır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi misilsiz layihələr reallaşdırılıb. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin və 2020-ci ildə TAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. Həmçinin "Əsrin müqaviləsi" 2050-ci ilə qədər uzadılıb.

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb. Bakı-Tbilisi-Qars dəmiryolu istifadəyə verilib. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları çəkilib. İşğaldan azad olunmuş Füzuli və Zəngilan şəhərlərində hava limanlarının inşası, Laçın rayonunda hazırda hava limanının tikintisinin davam etdirilməsi, Qarabağ bölgəsinin sənaye mərkəzinə çevriləcək Ağdamda on minlərlə sakin üçün nəzərdə tutulmuş tamamilə yeni şəhərin inşa olunması və məcburi köçkünlərin qayıdışı üçün reallaşdırdığı Zəngilan rayonunun Ağalı kəndində ilk pilot layihəsi, Laçın şəhərinə Böyük Qayıdışa hazırlığın görülməsi bunların bariz nümünəsidir.

Bu gün Azərbaycan dövləti həm də dünyada sayı məhdud olan kosmik ölkələr sırasındadır. 2013-cü ildə ilk telekommunikasiya peykimiz "Azerspace-1", 2014-cü ildə yer səthini müşahidə edən "Azersky" peyki, 2018-ci ildə isə daha bir telekommunikasiya peyki "Azerspace-2" orbitə çıxarılıb.

Bütün bunlarla yanaşı, son 20 ildə əhalinin yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enib, strateji valyuta ehtiyatlarımız 50 milyard ABŞ dollarını ötüb. Qeyri-neft sektorunun kənd təsərrüfatının, metallurgiya sənayesinin, yüngül sənayenin inkişafı istiqamətində atılan mühüm addımlar da öz müsbət nəticəsini verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin böyük siyasi bilikləri, təcrübəsi, diplomatiya elmini dərindən bilməsi ölkəmizin xarici siyasət kursunun uğurla həyata keçirilməsində mühüm rol oynayır. Ölkələrin bir-birinin suverenliyinə hörmət etmələrinin, əməkdaşlığı gücləndirməklə qarşılıqlı faydalı əlaqələrin qurulmasının vacibliyini bəyan edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xarici siyasət kursunu bu prinsiplər əsasında qurub. Bu səbəbdəndir ki, dünya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin irəli sürdüyü beynəlxalq və regional təşəbbüslərə dəstək verir. Əlbəttə, Ermənistan istisna olmaqla, bütün qonşu dövlətlər, həmçinin digər xarici tərəfdaş ölkələrlə iqtisadi müstəvidə qurulan səmərəli əməkdaşlıq qarşılıqlı siyasi əlaqələrin formalaşmasında və möhkəmləndirilməsində mühüm rol oynayır. Bu gün həm də dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan Respublikası qonşu ölkələrlə (Ermənistan istisna) müxtəlif platformalarda əməkdaşlıq əlaqələri quraraq mövcud münasibətlərini daha da möhkəmləndirir.

Bu illər ərzində beynəlxalq təşkilatlarla da səmərəli əməkdaşlıq əlaqələri qurması ölkəmizin beynəlxalq imicinin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Bu sıraya Türk Şurası, MDB, ATƏT, İƏT və kimi digər qurumlarla səmərəli əməkdaşlıq əlaqələri də daxildir.

Düşünülmüş və konkret hədəflərə istiqamətlənmiş xarici siyasətdə ən ağrılı problemimiz olan Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, problemin həlli üçün hüquqi bazanın formalaşdırılması xüsusi yer tuturdu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bütün səfərlərində, keçirdiyi görüşlərində, mötəbər tribunalarda etdiyi çıxışlarında Ermənistanın işğalçılıq siyasəti səbəbindən yaranmış bu münaqişə əsas mövzu olmuşdur. Bununla yanaşı, dövlətimizin başçısı müvafiq qurumların, diplomatik missiyaların qarşısında bu məsələ ilə bağlı müvafiq tapşırıqlar qoydu və əməli addımlar atıldı, beləliklə, dünya Azərbaycanın ədalətə söykənən mövqeyi barədə məlumatlandırıldı.

İllər ötdükcə Azərbaycanın artan iqtisadi imkanları fonunda ordumuzun arsenalı dünyanın ən qabaqcıl ölkələrinin istehsalı olan müasir hərbi texnikalarla daha da gücləndirildi. Müxtəlif ölkələrlə hərbi əməkdaşlığa dair sənədlər imzalandı, hərbi qulluqçularımızın xarici dövlətlərdə müxtəlif təcrübə proqramlarında iştirakı təmin edildi. Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci ildə imzaladığı Sərəncama əsasən, Müdafiə Sənayesi Nazirliyi yaradıldı.

Beynəlxalq reytinqə görə, Azərbaycan Ordusu bu gün dünyada ən güclü 50 ordu sırasında yer tutur. Vətən müharibəsinə qədər Azərbaycan Ordusu öz gücünü və döyüş qabiliyyətini 2016-cı ilin aprelində həm düşmənə, həm də dünyaya nümayiş etdirdi. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin döyüşə əmri ilə Azərbaycan Ordusunun başladığı əks-hücum əməliyyatı işğal altındakı torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması ilə nəticələndi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Ordusunu yaratdı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev isə onu dünyanın ən güclüləri sırasına çıxardı. Bu ordu qarşısında duran tarixi missiyanı, yaradıcısı olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin arzusunu və vəsiyyətini yerinə yetirdi. Odur ki, bu gün Ulu Öndər Heydər Əliyevin ruhu rahatdır və bu qələbə həm də Ulu Öndərin ideyalarının təntənəsidir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur Ulu Öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun irsən qoyub getdiyi milli tərəqqi ideyalarının təzahürüdür.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

Medallı igidlərimiz

# “Şəhid zabitin zabit oğluyam...”



***1989-cu ildə Cəlilabad rayonunun Göytəpə kəndində anadan olub. Müharibə illəri onun da uşaqlığının mənəvi sıxıntısına dönüb. 31 ildi yaddaşında qalanları ömür kimi əzizləyir; Elman Əsgərov bir ömürdə iki ömür yaşadır...***

Atası hərbçi idi. Birinci Qarabağ müharibəsində “baş leytenant” rütbəsində Füzuli istiqamətində döyüşlərdəydi. Qırmızı Bazar qəsəbəsində yerləşən düşmən bölmələrini məhv etmək əmrini yerinə yetirənlərin sırasında tankçı baş leytenant Şahin Əsgərov da vardı. 1992-ci il sentyabrın 18-də döyüşdə şəhid oldu...

"Atamın şəhid olduğunu eşitmişdim. Şəhidliyin nə olduğunu böyüyəndə bilmişdim. Hərbçi olmağı qərara aldım. Atam şəhid olan yerə hərbçi kimi getmək mənim arzum olmuşdu...".

Elman Əsgərov Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, sonra indiki Heydər Əliyev adına Hərbi İnstitutu bitirdi. Xatırlayır ki, buraxılış günündə Hərbi And içdikdən sonra bir anlığa tədbirə gələn atalara baxıb, ona elə gəlib ki, atasının ruhu da onların sırasındadı. Atalar "leytenant" rütbəsi almış oğullarına xeyir-dua verəndə Elman da ruhən şəhid baş leytenant Şahin Əsgərovun - atasının səsini eşidirmiş: "Nümunəvi zabit ol, oğul!..". Elman nümunəvi zabit oldu. 2010-cu ildə niyyətinə çatmışdı, diləyinin gerçəkləşəcəyi günün astanasındaydı...

Leytenant Elman Əsgərov xidmətində intizamıyla fərqləndi, tabeliyində olan əsgərlərin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığının yüksəldilməsini təmin etdi. Onların yüksək mənəvi keyfiyyətlərə malik vətəndaş kimi formalaşmasına çalışırdı...

Müxtəlif hərbi hissələrdə xidmət etdi. Artilleriyaçı idi.

Mayor Elman Əsgərovun xidmət etdiyi hərbi hissə də əks-hücum əməliyyatı ilə başlayan İkinci Qarabağ müharibəsində iştirak edirdi - döyüşən ordu hissələrimizin hücumlarına artilleriya dəstəyi də verir, verilən tapşırıqları yerinə yetirirdi. Qazanılan qələbələrdə Füzuli, Qubadlı, Zəngilan, Cəbrayıl, Şuşa istiqamətlərində Elmanın döyüşdüyü batareyanın da xidmətləri vardı.

- Düşmənin mövqeyə hərbi sursat, ərzaq, canlı qüvvə aparan maşın karvanını məhv etmək əmri almışdıq. Koordinatları verilmişdi. Görünməyən mövqeyi sevgi işığında görmək mümkündür. Bu sevgi Vətənə sevgidir.

Batareyanın şəxsi heyəti döyüş əmrini yerinə yetirdi, düşmənin maşın karvanı ünvanına çatmadı...

Mayor Elman Əsgərovun artilleriyaçıları Vətən müharibəsində neçə-neçə belə döyüş tapşırığı yerinə yetirdilər.

Qırmızı Bazarın düşməndən təmizlənməsini, bəlkə də hamıdan çox mayor Elman Əsgərov arzulayırdı - atasının şəhid olduğu yeri görmək, atasının ruhu ilə kəlmələşmək istəyirdi.

- Qırmızı Bazar hələ ermənilərdən təmizlənməmişdi. Uzaqdan-uzağa atamın ruhuna sarı pıçıldadım: Qalmaz belə, qalmaz dünya...

Mayor Elman Əsgərov "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

Gənc zabitlərimiz

# Arzunun muradı

***Düşmənlə təmas xəttindəyik. Bölmənin dayaq məntəqəsində ilk görüşdüyüm baş leytenant Arzu Allahverdiyev oldu. Bəstəboy, qaraşın bu zabitin çöhrəsindəki təbəssüm ön xətdə xidmətin lazımınca təşkil edilməsinə bir işarədi. Əsgər yataqxanası, səngərlər, əlaqə yolları əraziyə uyğun maskalanıb. Ətrafda gözoxşayan səliqə-sahman var.***



Kapitan Rəhman Abdurəhmanov düşmənlə üzbəüz xidmət edən bölmələrin fəaliyyətinə gəlincə qeyd etdi ki, əsgərlər mövqelərdə həmişə ayıq-sayıq xidmət edirlər. "Dəfələrlə olub ki, ermənilər mövqelərimizi atəşə tutublar. Hər dəfə də düşmən layiqli cavabını alıb. Biz imkan verməmişik ki, erməni əsgəri cürət edib torpaqlarımıza ayaq bassın. İkinci Qarabağ müharibəsində ordumuz tarixi qələbəyə imza atdı. Müharibəyə qədər ermənilərin işğal etdikləri torpaqlardan heç vaxt çıxmayacaqlarını deyirdilər. Amma tarix, zaman göstərdi ki, Azərbaycan xalqı və dövləti nə torpaq itkisi ilə barışdı, nə də bir milyona yaxın soydaşının taleyinə biganə qaldı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə xalq-ordu birliyi 30 ilə yaxın davam edən işğalı sonlandırdı".

Zabit R.Abdurəhmanov İkinci Qarabağ müharibəsindən söz düşəndə onun da komandiri olduğu bölmənin döyüş fəaliyyətindən danışdı. Əlavə etdi ki, baş leytenant A.Allahverdiyev müharibə vaxtı taqım komandiri olub. Həm şəxsi şücaəti ilə, həm də tabeliyində olan bölməni döyüşdə bacarıqla idarə etdiyinə görə fərqlənib.

Baş leytenant Arzu Allahverdiyevin xidmət yerində necə tələbkar və şəxsi heyətə qarşı qayğıkeş komandir olduğunu hiss etdik. Bölmənin dayaq məntəqəsinə gələndə buradakı səliqə-sahman, hərbi qulluqçulardakı intizam, döyüş növbətçiliyinin təşkili bir daha deyilənləri təsdiqlədi. Atalar yaxşı deyib: "Görünən dağa nə bələdçi".

Arzuyla qısa tanışlıqdan sonra məlum oldu ki, o, ailənin tək övladıdır. Göygöl rayonunun Üçtəpə kəndindən olan zabit kiçik yaşlarında anasını, daha sonra atasını itirib. O, qohumlarının himayəsində böyüyüb. Gəncə Dövlət Universitetini "Fizika və texniki fənlər" ixtisası üzrə bitirib. Ali təhsili başa vurandan sonra ordu sıralarına çağırılıb. Müddətli həqiqi hərbi xidmətdə olanda Vətənin müdafiəsində məharətlə dayanıb. Torpaqlarımızın 20 faizi yağı tapdağı altında olduğu bir vaxtda yenidən zabit kimi ordu sıralarında xidmət etmək qərarına gəlib. Arzunun muradı düşmən işğalında olan ərazilərimizin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmək idi.

İkinci Qarabağ müharibəsi başlayanda Arzu cəbhənin ən qaynar nöqtələrindən birində olub. Arzugilin əks-hücum tapşırıqlarını yerinə yetirdiyi istiqamətdə düşmən möhkəm müqavimət göstərib. Buna baxmayaraq, ermənilərə sarsıdıcı zərbələr vuranların sırasında olub.

Hakim yüksəklikdə düşmənlə üzbəüz və olduqca yaxın məsafədə xidmət edən mərd, igid oğullar yüksək döyüş təcrübəsinə malik zabitin tabeliyində xidmət etməkdən qürur duyurlar. Onlar bir an belə sayıqlıqlarını itirmirlər. Belə yerlərdə düşməni bircə an nəzarətsiz qoymaq olmaz.

Zabit Arzu Allahverdiyev döyüş növbəsinə çıxmazdan əvvəl postdakı şəxsi heyəti təlimatlandırır. Onlara müşahidəni necə aparmaq lazım olduğunu izah edir. Əsgərlər döyüş növbəsinə çıxanda təkcə düşməni müşahidə etməklə kifayətlənmir, eyni zamanda onun hərəkətini nəzarətdə saxlamaqla niyyətini öyrənirlər.

Bölmə komandiri deyir ki, müşahidə aparan əsgərlərin yanında tez-tez olur.

- Dağlıq və meşəlik ərazi olduğu üçün daha da sayıq olmağımız tələb olunur. Düşmənə aman vermərik ki, bir də təxribata cürət etsin.

Öyrənirik ki, baş leytenant Arzu Rəfayıl oğlu Allahverdiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə döyüşlərdə fərqləndiyinə görə "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Avstriya Avropada hava hücumundan müdafiə sisteminə qoşulacaq



Avstriya Avropada hava hücumundan "Səma qalxanı" ("Sky Shield") müdafiə sisteminə qoşulacaq.

Bu barədə məlumatı Federal Kansler Aparatı və Müdafiə Nazirliyi təsdiqləyib. Federal Kansler Karl Nehammer bu qərarı əsaslandırarkən bildirib ki, Ukraynadakı müharibə təhlükəsizlik vəziyyətinə mənfi təsir göstərib və Avstriyanın dron və raketlərin mümkün hücumundan qorumaq üçün müvafiq tədbirlər görülməlidir. Həmçinin qeyd edilib ki, bu sistemə qoşulmaq Avstriyanın əbədi neytrallığına xələl gətirməyəcək.

Müdafiə naziri Klaudia Tanner bildirib ki, müdafiə sisteminə qoşulmaq üçün hazırda danışıqlar gedir və Avstriyanın bu layihədə konkret iştirakının nədən ibarət olacağı araşdırılır. Qeyd edilib ki, Avstriyanın bu sistemə qoşulması yalnız təhlükələrin qarşısının alınması, yəni sırf müdafiə xarakteri daşıyacaq.

"European Sky Shield Initiative" (Avropa Səma Qalxanı Təşəbbüsü) Aİ və NATO üzvü Almaniyanın layihəsidir və Ukraynadakı müharibəni nəzərə alaraq Avropada hava hücumundan müdafiəni təkmilləşdirməyə, mövcud boşluqları doldurmağa və vahid sistem halına gətirməyə xidmət edir. Hazirda təşəbbüsə 17 ölkə qoşulub.

## İsrail ABŞ-dan daha 25 “F-35” qırıcısı alacaq



İsrail ABŞ-dan daha 25 "F-35" qırıcısı almağa qərar verib.

Bu barədə ölkənin Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

"ABŞ-ın "Lockheed Martin" şirkəti tərəfindən istehsal olunacaq əlavə 25 təyyarə ilə İsrail Hərbi Hava Qüvvələrindəki "F-35"lərin sayı 75-ə çatacaq", - məlumatda qeyd edilib.

## Litvanın Müdafiə Nazirliyi Ukraynaya 80 ədəd “Skywiper” göndərmək istəyir



Litvanın Müdafiə Nazirliyi bir sıra silahların Kiyevə verilməsi üçün layihənin müzakirəsini respublika parlamentinə çıxarıb.

Söhbət dronlara qarşı istifadə olunan 80 ədəd "EDM4S SkyWiper" dəstindən, eləcə də bir neçə "Warmate" döyüş dron sistemindən gedir.

Layihəyə əsasən, Vilnüs Kiyevə 2 milyon 452 min avro dəyərində silah ötürmək niyyətindədir.

Litva Müdafiə Nazirliyinin qərarı artıq hökumət tərəfindən təsdiqlənib və hazırda parlamentdə baxılma proseduru gedir.

## Novorossiyskdə İkinci Dünya müharibəsindən qalan aviabomba tapılıb



Novorossiyskdə torpaq işləri zamanı İkinci Dünya müharibəsindən qalan "FAB-250" aviabombası aşkarlanıb.

Bu barədə Novorossiysk administrasiyasının rəhbəri Andrey Kravçenko bildirib.

Partlayıcı obyektin aşkarlandığı ərazi xüsusi nəzarətə götürülüb.

Aviabombanın məhv edilməsi üzrə işləri Rusiya Fövqəlade Hallar Nazirliyinin Don Xilasetmə Mərkəzi aparacaq.

**AZƏRTAC-ın**
**materialları əsasında**

## *Məişət*

# “Sosial-məişət şəraitimiz yüksək səviyyədədir”

Müzəffər Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində hərbi qulluqçuların döyüş hazırlığı ilə yanaşı, sosial-məişət şəraiti də artan templə inkişaf etməkdədir. Belə ki, hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq müvafiq işlər görülür. Hərbi hissələrdə yaradılan sosial-məişət şəraiti görülən işlərin əyani sübutudur. “N” hərbi hissəsinin əsgər yeməkxanası və yataqxanasındakı səliqə-sahman, müvafiq standartlara uyğun tərtib olunmuş ideoloji otaq, müasir avadanlıqlarla təchiz olunan və tam avtomatlaşdırılmış sistemdə fəaliyyət göstərən hamam və camaşırxanada gördüklərimiz hər birimizə xoş təəssüratlar bəxş etdi.

Kapitan Şahmar Piriyevlə əsgər yataqxanasına üz tutduq. Burada əsgərlər Elgün Mütəllimov və Hilal Şəkərov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Müşfiq Məsiyevlə həmsöhbət olduq. Təmizliyin imandan gəldiyini deyən çavuş Müşfiq Məsiyev bildirdi ki, təmizliyə riayət etmək hər birimizin borcudur. Çünki hər bir insanın fərdi təmizliyi vacib amillərdəndir ki, şəxsi heyət bu nüansa xüsusi diqqət edir. Fərdi təmizliyə baxmayaraq ətraf mühit təmiz olmasa, xəstəlik tapma ehtimalı daha çoxdur. Məhz bu səbəbdən də əsgər yataqxanasının təmiz və səliqəli saxlanılması üçün daim lazımi tədbirlər həyata keçiririk.

Əsgər Elgün Mütəllimov isə bildirdi ki, hər bir Azərbaycan gənci kimi onun da arzusu əsgər olmaq, Vətənə övladlıq borcunu layiqincə yerinə ye-



tirmək olub. "Xidmətə başladığım ilk gündən etibarən komandirlərimizin qayğısı ilə əhatə olunmuşuq. Onlar hər birimizin problemləri ilə yaxından maraqlanır və həllinə köməklik göstərirlər. Bununla yanaşı, hər cür şəraitlə təmin olunmuşuq. İsti yataqxanamızın, qida və geyim təminatımızın qay-



dasında olması çətinlikləri bizdən uzaq tutur. Hər həftə yataq dəstlərimiz yuyulur, təmizlənir, daha sonra isə ütülənərək dəyişdirilir. Bu qayğının qarşısında üzərimizə yalnız bir vəzifə düşür - torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaq".

Əsgər Hilal Şəkərov isə onlar üçün yaradılan şəraitdən söz açaraq dedi ki, Müzəffər Ali Baş Komandanın diqqət və qayğısı sayəsində sosial-məişət şəraitimiz olduqca yüksək səviyyəyə çatdırılıb. “Əlbəttə, şərait bizdə ruh yüksəkliyi yaradır. Bu cür diqqət və qayğının qarşısında isə bizim öhdəmizə düşən tək vəzifə - Vətən torpaqlarının müdafiəsində mətin dayanmaqdır. Biz də bu vəzifənin öhdəsindən bacarıqla gəlmək üçün çalışırıq".

Növbəti həmsöhbətim Yevlax rayonundan hərbi xidmətə çağırılan əsgər Əziz Həsənovdur. O, mülki həyatda bərbər olduğunu bildirdi. "Hərbi xidmətdə intizamlı olmaqla yanaşı, hərbi qulluqçu həm də qiyafəcə səliqəli olmalıyıq. Məhz bu səbəbdən ilk gündən etibarən əsgər yoldaşlarımın saç düzümlərini yaxşı etmişəm ki, onların hər biri səliqəli görünsün. Əlbəttə, saç düzümünü mənim və yaxud onların istədiyi kimi yox, təlimata müvafiq olaraq düzəldirəm".

Sonra kapitan Şahmar Piriyevlə müasir avadanlıqlarla təchiz olunan və tamamilə avtomatlaşdırılmış sistemdə fəaliyyət göstərən camaşırxanaya yollandıq. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Araz Babazadə buranın fəaliyyəti barədə geniş məlumat verdi. Bildirdi ki, çirkli camaşırların qəbulu, yuyulması, ütülənməsi, təmiz camaşırların saxlanc otaqlarında çeşidlənib saxlanılması və hərbçilərimizə geri qaytarılması prosesləri burada həyata keçirilir. Xüsusi geyim formasında olan qadın operatorlar əl əməyindən demək olar ki, istifadə etmədən avtomatlaşmış xüsusi avadanlıqlar vasitəsilə öz xidmət vəzifələrinin öhdəsindən layiqincə gəlirlər.

Camaşırxana işçisi Samirə Qasımova uzun müddətdir bu hərbi hissədə çalışaraq, cəsur əsgərlərimizə qulluq edir. "Burada xidmət edən məğrur əsgərlərimizi öz övladlarımdan seçmirəm. Onların hər biri mənim üçün əzizdir, doğmadır. Çünki onlar şərəfli vəzifəni qətiyyətlə yerinə yetirirlər - Vətən torpaqlarının müdafiəsində dayanırlar. Məhz onların sayəsində biz evimizdə rahat və firavan yaşayırıq".

Camaşırxana işçisi Xatirə Əliyeva Vətən keşikçilərinə xidmət etməkdən qürur duyduğunu bildirdi. "Şəxsi heyətin geyimləri və çirkli yataq dəstləri bölmələrdən təhvil alınaraq buraya gətirilir. Burada isə onlar növünə görə çeşidlənir və gigiyenik qaydada yuyulur. Yuyulma prosesi təyin olunmuş istilik dərəcəsində müasir aparatlarla



həyata keçirilir. Yuyulmadan çıxan camaşırlar xüsusi avadanlıqlarla qurudularaq ütülənir. Ütülənmə mərhələsindən sonra əsgərlərin paltarlarını və yataq dəstlərini saxlanca göndəririk. Təyin olunmuş vaxtda isə saxlancdan götürülən təmiz əşyalar əsgərlərimizin istifadəsinə göndərilir. Bu gün məğrur Azərbaycan əsgərinə qulluq göstərmək şərəfdir".

Beləliklə, hərbi hissədə yaradılan yüksək şərait bir daha sübut edir ki, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, ordunun maddi-texniki təminatının gücləndirilməsi dövlət rəhbərliyinin daim diqqət mərkəzindədir və bu istiqamətdə aparılan işlərin təkmilləşməsi uğurla davam etdirilir. Bu cür şəraitdə xidmət edən Vətən müdafiəçiləri isə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycanlı atlet rekordu yeniləyib



Qazaxıstanın Almatı şəhərində keçirilən XXXII Qosanov Memorialında üç təkanla tullanma üzrə yarışda Yekaterina Sarıyeva uğurlu çıxışla yadda qalıb.

Atletimiz 13.89 metr göstərici ilə bütün rəqiblərini qabaqlayaraq birinci yeri tutub. Bu nəticə ilə Yekaterina həm də üç təkanla tullanma növü üzrə özünə məxsus olan Azərbaycan rekordunu da yeniləyib. Sarıyeva göstəricisini 1 santimetr yaxşılaşdırmaqla buna nail olub.

Estoniyanın Pyarnu şəhərində keçirilən yarışda isə təmsilçimiz Anna Skidan fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Skidan çəkicatmada 71.86 metr nəticə göstərərək qalib adını qazanıb.

## Tamblinq üzrə Azərbaycan yığmasının üzvü Dünya Kubokunun qalibi olub



Tamblinq üzrə Azərbaycan yığmasının üzvü Mixail Malkin Portuqaliyanın Santarem şəhərində keçirilən Dünya Kubokunun qalibi olub.

27 yaşlı idmançı bütün rəqiblərini qabaqlayaraq qızıl medala sahib çıxıb.

Qeyd edək ki, yarışda Selcan Mahsudova (batut gimnastikası), Tofiq Əliyev və Adil Hacızadə (tamblinq) də mübarizə aparıb. İdmançılar iyulun 7-8-də Portuqaliyanın Koimbra şəhərindəki Dünya Kubokunda da çıxış edəcəklər.

## Sərbəst güləşçilərimiz U-20 üzrə Avropa çempionatında 6 medal qazanıb




İspaniyanın Santyaqo de Kompostela şəhərində güləş üzrə U-20 Avropa çempionatı sona çatıb.

Yunan-Roma güləşi üzrə millinin ardınca sərbəst güləş üzrə yığmamız da tarixi uğura imza atıb.

Komandamız Avropa çempionatında 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıb. Yekunda 143 xal toplayan millimiz komanda hesabında Avropa çempionu olub. Bu nəticə sərbəst güləş üzrə yığmamızın U-20 Avropa çempionatlarında topladığı ən yüksək xaldır.

Qeyd edək ki, Arif Abdullayev, Rövşən Hacıyev və Əşrəf Əliyevin rəhbərliyi altında yarışda iştirak edən yığmamızın heyətində Ruslan Abdullayev (57 kq) və Ceyhun Allahverdiyev (61 kq) Avropa çempionu olub. Yusif Dursunov (125 kq) ikinci, Cavidan Əhmədov (70 kq), Sadiq Mustafazadə (79 kq) və Zəfər Əliyev (97 kq) isə üçüncü yeri tutub.

**AZƏRTAC-ın materialları əsasında**

## *Redaksiyamızın poçtundan*

# Poetik düşüncə şeirləşəndə ...

*Hər şeir duyğudur, düşüncədir, ona görə şeirə həyatın dərkinə aparan işıqlı yol deyirik.*

*Uşaq dünyası ona görə bənzərsizdir ki, bu dünya böyük dünyanı da heyrətə gətirməyə qadirdir. Sözə bu qədər bələd olmaq da heyrətdi, fikri poetik ifadə etmək də.*

*Adil Nuriyev şeirə, şeiriyyətə bələd şagirddir. Onun yazdığı şeirlərdə Vətən var - şagirdin Vətən sevgisi şeirlərində əks olunub. Adil Nuriyevə yaradıcılıq uğurları arzulayırıq.*

**"Azərbaycan Ordusu"**

### Xocalı

*(Xocalı şəhidlərinin əziz xatirəsinə)*

O dəhşətli, müdhiş gecə,
Soyqırımı törətdilər -
Xocalıya od vuraraq,
Yer ilə yeksan etdilər.

Axıdıldı günahsız qan,
Yağış kimi yağdı ölüm.
Daşnakların əlləriylə
Millətimiz çəkdi zülüm.

Bu, erməni vəhşiliyi,
Bu, erməni qəsdi idi.
Xocalının ah-naləsi
İntiqama səsləyirdi.

Çox şükürlər olsun, Allah,
Şanlı Zəfər çalındı.
Xocalının intiqamı
Düşmənlərdən alındı!

### Vətənim Azərbaycan!

Varlığımsan, qüdrətimsən,
Ey Vətənim, Azərbaycan!
Namusumsan, qeyrətimsən,
Ey Vətənim, Azərbaycan!

Sən dünyaya nur saçırsan,
Gələcəyə yol açırsan,
Xoşbəxtliyin açarısan,
Ey Vətənim, Azərbaycan!

Bayrağın enməsin deyə,
Hazırıq candan keçməyə -
Ölüm şərbətin içməyə,
Ey Vətənim, Azərbaycan!

Xoş məramın vardır sənin,
Bəhrəsisən ümidlərin,
Mayakısan gələcəyin,
Ey Vətənim, Azərbaycan!

**Aqil Nuriyev**
**A.Bayramov adına**
**Məmmədabad kənd tam orta məktəbin şagirdi**

Tibb xidməti leytenantı Babayev Elşən Elşad oğluna məxsus MN № 0064623 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş gizir İsayev Mədnəddin Qasım oğluna məxsus SQ № 0013349 nömrəli şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Məmmədov Məmməd Əvəz oğluna məxsus SQ № 0025662 nömrəli şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Novruzlu Səbuhi Rövşən oğluna məxsus AD № 0013209 nömrəli və əsgər Alızadə Ceyhun Patrus oğluna məxsus AD № 0056782 nömrəli şəxsi vəsiqələri itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 348
Nüsxə 4725